**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 9

**Bakı şəhəri** "03" fevral 2017 il

**"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016 – 2020-ci illər üçün Dövlət Proqramı"nın icrası barədə"**

Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2016-cı il tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016 – 2020-ci illər üçün Dövlət Proqramı"nın icrası məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016 – 2020-ci illər üçün Dövlət Proqramı"nın icrasına dair Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
2. Tədbirlər Planında qeyd olunan icraçı struktur bölmələrin və qurumların rəhbərlərinə tapşırılsın ki, Tədbirlər Planı üzrə nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş tədbirlər planının maliyyələşdirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilsin.
4. Əmrin icrasına nəzarət nazir müavini Elsevər Ağayevə həvalə olunsun.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
"___" __________ 2017-cı il tarixli
___ nömrəli əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016 – 2020-ci illər üçün Dövlət Proqramı"nın icrasına dair Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**

## TƏDBİRLƏR PLANI

| Sıra | Tədbirin adı | Görüləcək işlər | İcraçı | İcra müddəti (İllər üzrə) |
|---|---|---|---|---|
| 1 (5.4.2.1.) | Tibb müəssisələrinin genişzolaqlı internetə qoşulmasının təmin olunması üçün tədbirlərin görülməsi və Milli Səhiyyə şəbəkəsinin yaradılmasına dair təkliflər hazırlanması | 1.1. Tibb müəssisələrinin genişzolaqlı internetə qoşulmasının təmin olunması | SİM, tibb müəssisələri | 2018-2019 |
| | | 1.2. Milli Səhiyyə şəbəkəsinin yaradılmasına dair təkliflərin hazırlanması | SİM, TYTŞ, İSİ | 2017 |
| 2 (5.4.2.2.) | Ümumi istifadə üçün tibbi resursların yaradılması | 2.1. Elektron xidmətlərin tam avtomatlaşdırılması və istifadəsinin asanlaşdırılması | SİM, TYTŞ, KETŞ, SENS | 2017-2020 |
| | | 2.2. Tibbi elektron registrlərin təkmilləşdirilməsi | SİM, TYTŞ, SENS | 2017-2020 |
| | | 2.3. Səhiyyə Nazirliyinin rəsmi internet saytının mobil versiyasının hazırlanması | SİM | 2017 |

| | | | | |
|---|---|---|---|---|
| | | 2.4. Vətəndaşların elektron səhiyyə kabinetinin mobil qurğularda istifadəsi üçün proqram modulların hazırlanması | SİM | 2017 |
| | | 2.5. Vahid elektron tibbi kitabxana sisteminin təkmilləşdirilməsi | RETK, SİM | 2017-2020 |
| 3 (5.4.2.3.) | Telesəhiyyə xidmətlərinin tətbiqinin genişləndirilməsinə dair tədbirlərin görülməsi | 3.1. Mərkəzləşdirilmiş Görüntülərin Arxivlənməsi və Ötürülməsi Sisteminin (PACS) yaradılması | SİM, TTTYS, tibb müəssisələri | 2017-2018 |
| | | 3.2. Telesəhiyyə texnologiyaların tətbiqi ilə regionlarda və elmi tibb mərkəzlərində telesəhiyyə məntəqələrinin qurulması və təcili və təxirəsalınmaz konsultativ tibbi yardımın təşkili olunması | SİM, TTTYS, tibb müəssisələri, | 2017 |
| | | 3.3. Telesəhiyyə xidmətlərinin tətbiqinin genişləndirilməsinə dair əlavə tədbirlərin görülməsi | SİM | 2017-2020 |
| 4 (5.4.2.4.) | Tibb işçilərinin İKT biliklərinin artırılmasına dair təkliflərin hazırlanması və həyata keçirilməsi üçün tədbirlərin görülməsi | 4.1. Tibb işçilərinin İKT biliklərinin artırılmasına dair təkliflərin hazırlanması | KETŞ, SİM, ATU, ADHTİ, tibb kollecləri | 2017 |
| | | 4.2. Tibb kadrlarının diplomdan sonrakı təhsil prosesinə İKT üzrə kursların daxil edilməsi. | KETŞ, ADHTİ, Tibb kollecləri, SİM | 2017-2018 |